

***Mayisə Əsədullaqızı***

## MƏNİMLƏ BİR BİÇİMDƏDİ

Gəldi bəxti qara gecə,
Titrək şam
Uzadıb
Zərif  dilini,
Öpür yanağımda xalımdan.
Xoşlanır bu halımdan.
Gecə!!
Qara yaxanı çəkəcəm,
İlmələrin söküləcək,
Milyon illər səmalarda
Batıb  qalan ulduzların
Ehtirasla
Yatağıma töküləcək.
Sübh şəfəqi
Sevinəcək.
Gecə,
Ruhum səndən dərindi,
Bir kainat içimdədi,
Ulduzlar da, üfüqlər də,
Sevilmək də,
Mənimlə bir biçimdədi...

## ÜFÜQLƏRDƏ

Gündüzlərdən gecələrə
Qaçanlar,
Qucağını
məhəbbətə açanlar.
Burda bizi tanıyan yox,
Açıq-aşkar öpsəm belə,
Qınayan yox.
Səhərlərin qeybət dolu
çürüntüsü
Üzümüzdə.
Axşamların sevgi dolu
Hönkürtüsü gözümüzdə.
Gecələrin bu sığalı
izləməyə
Daha səbri çatmadı.
Üfüqlərdə
Qara qəlbi çatladı...

## MƏSUM QIZCIĞAZ

Ruhumda bir qızcığaz
yaşayır.
Heç vaxt böyümür,
Sevinci-kədərə qarışır.
Gözündə  nakam
Arzuları sayrışır.
Gözləri qapqara  idi,
Həyatın ona
Bağışladığı sürprişzlər,
Zülümlər kimi.
Bilmirəm, çox ağladı,
Yoxsa, yollara çox baxdı....
Gözlərinin rəngi  soldu,
Açıq qəhvəyi oldu.
Bəzən, ümid qopardı,
Göz yaşından.
Saf ümidlər idi onu
yaşadan...
Söyləmədi kimsəyə
dərdini,
Heç bilən olmadı.
Bəxtinə xoş günləri
bölən olmadı.
Gülümsər sifətində,
Qəm-kədər  gizli itib,
Qızcığaz  ruhumun
İçində bitib...

Ədalət 2019.- 31 oktyabr.- S.8.